**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**TURQAY İMAMQULU oğlu HÜSEYNOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOJİ TƏHLÜKƏSİZLİYİ: BEYNƏLXALQ HÜQUQİ VƏ DÖVLƏTDAXİLİ ASPEKTLƏR

İxtisas: 5603.01 – "Beynəlxalq hüquq, insan hüquqları"

**Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Beynəlxalq ümumi hüquq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Revol Mirqalimoviç Valeyev**
Rusiya Federasiyasının Əməkdar hüquqşünası,
hüquq üzrə elmlər doktoru, professor.

**Rəsmi opponentlər:** **Oqtay Firudin oğlu Əfəndiyev**
hüquq üzrə elmlər doktoru, professor.

**Lətif Hüseyn oğlu Hüseynov**
hüquq üzrə elmlər doktoru, professor.

**Natalya Aleksandrovna Sokolova**
hüquq üzrə elmlər doktoru.

**Aparıcı təşkilat:** **AMEA Hüquq və İnsan haqları İnstitutu**

Disertasiya işinin müdafiəsi "___" "____________" 2018-ci il tarixdə saat "_________" Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş B/D 02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23 (BDU, 1 saylı korpus, auditoriya 901)

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_____________" 2018-ci il tarixdə göndərilmişdir.

**B/D 02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent:** **Ə.Q.Məmmədov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** XX əsrin sonu XXI əsrin əvvəli alimlərin maraqlarının insanla təbiətin qarşılıqlı əlaqəsi, ətraf mühitlə insanların təhlükəsizliyi arasındakı münasibət məsələlərinə artması ilə müşahidə olunur. Hesab olunur ki, ətraf mühitin təhlükəsizliyi sülhün, milli təhlükəsizliyin və insan hüquqlarının təmin edilməsinin mühüm göstəricisidir. Odur ki, ekoloji təhlükəsizlik məhz insan təhlükəsizliyini ehtiva edir.

İnsanın aktiv fəaliyyəti təbii balansı pozmaqla gələcək nəsillərə təhdid yaradan çağırışların yaranmasına səbəb olmuşdur. Bu cür təhlükəli nəticələr ümumilikdə məhdud mineral ehtiyatların birgə ətraf mühitə ehtiyatlı münasibətə və mövcud resursların səmərəli istifadəsinə yönəlmiş yanaşmanın formalaşmasını tələb edir. Bununla yanaşı bu cür yanaşma hazırda reallıqdan daha çox arzuolunan bir məqsəd kimi qalmaqdadır.

İnsanla təbiət arasındakı qarşılıqlı münasibətin hərtərəfli olması ozon qatının dağılmasına və qlobal istiləşməyə; içməli suyun keyfiyyətinin pisləşməsinə; balıqçılığın tükənməsinə; biomüxtəlifliyin deqradasiyası və itirilməsinə; səhralaşma və kənd təsərrüfatı torpaqlarının münbitliyinin azalmasına; yemək məsullarının istehsalının məhdudlaşdırılmasına və s. kimi mənfi dəyişikliklərə səbəb olur. Burada qlobal ekoloji təhlükəsizliyin sarsıması amili kimi ətraf mühitin davamlı idarə olunması və qorunmasının qlobal və regional və milli səviyyələrdə hüquqi tənzimlənməsi üçün müvafiq normativ və institusional bazanın formalaşması hesab olunur.

Qeyd etmək lazımdır ki, öz intensivliyi və əhatə dairəsi ilə ekoloji təhlükəsizliyin hüquqi əsasının formalaşmasına mənfi təsir göstərən maneə həm dövlətdaxili, həmçinin beynəlxalq münaqişələr, xüsusəndə silahlı münaqişələrdir. Məhz bu səbəbdən beynəlxalq aləmin qlobal müstəvidə əsas diqqətinin silahlı münaqişələrin qarşısının alınması məsələsindən mübahisələrin sülh vasitələri sistemi istifadə etməklə ekoloji təhlükəsizliyi təmin etmək səviyyəsinə yönəlməsidir.

Ekoloji təhlükəsizliyin təmin edilməsində hüquqi tənzimlənmənin başlanğıc nöqtəsini insanın ətraf mühitə dair bilgilərinin artması fonunda təkamül tapan təhlükəsizlik konsepsiyası tutur. Əgər əvvəllər təhlükəsizliyin mahiyyəti bir qayda olaraq hərbi təhlükəsizliklə məhdudlaşırdırsa, XX əsrin ikinci yarısından ekoloji təhlükəsizlik artıq ümumi təhlükəsizliyin mühim tərkib hissəsi kimi tanınmağa başlamışdır. Bu isə insanla təbiət arasında mövcud olan münasibətləri tənzimləyən normativ alətlərin yenidən baxılmasını gündəmə gətirir.

Tədqiqat mövzusunun aktuallığı davamlı inkişaf kontekstində Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyinin təmin edilməsinin vacibliyi ilə



də müəyyən edilir. Bu prosesi dövlət siyasətində iqtisadi prioritetləri ekoloji prioritetlərlə dəyişmədən təsəvvür etmək olmur.

Şübhəsiz ki, milli sistemlərin qorunub saxlanılması və ətraf mühitin keyfiyyətinin təmin edilməsi şərtilə, Azərbaycan Respublikasının davamlı inkişafı, əhalinin həyat və sağlamlığı və bütövlükdə milli təhlükəsizliyin qorunması mümkündür. Bu baxımdan Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasının müəyyənləşdirilməsində ekoloji sahədə əsas milli maraqların cəmiyyətin yaşayışı üçün təhlükəsiz ekoloji və texnoloji şəraitin yaradılmasının olmasıdır. Məhz Azərbaycan Respublikasının ekoloji sahədə milli təhlükəsizliyinin təmin olunması ətraf mühitin ona zərərli təsirlər nəticəsində yaranan təhdidlərdən qorunmasıdır ("Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsi).

Ümumiyyətlə, bunların hamısı əhalinin maraqlarını, təhlükəsiz ətraf mühitdə yaşamaq hüquqlarının müdafiəsinə yönəlir. Ətraf mühitin təhlükəsizliyinin təmin edilməsi həmçinin iqtisadi maraqla ekoloji texnologiyaların genişləndirilməsinə maraqların artırılmasını tələb edir. Beləliklə, ekoloji təhlükəsizliyin təmin edilməsi milli təhlükəsizliyin vacib bir hissəsidir və birləşən milli ideya ola bilər. Bu məlumatlar Azərbaycan Respublikasının milli prioritetləri sistemində ekoloji təhlükəsizliyin rolu və yeri ilə bağlı məsələni elmi və praktik baxımdan da aktuallaşdırmağa imkan verir.

Azərbaycan Respublikasının müasir inkişaf dövründə ekoloji münasibətlərin daha əlverişli hüquqi tənzimlənməsinin, yəni qanunvericilik tənzimlənməsinin, və ekoloji təhlükəsizliyin təmin edilməsinin hüquqi əsasların axtarışı xüsusi önəm kəsb edir. Bu prosesin dövlət tərəfindən beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsindən təcrid tətbiq edilə bilməməsi, ekoloji təhlükəsizliyin beynəlxalq hüquqi aspektlərinin öyrənilməsi aktuallaşdırır. Bütün bunlar da öz növbəsində, alimlərin nəzərini həm qlobal həmçinin daxili xarakter daşıyan milli təhlükəsizliyin ekoloji təhdidlərinə yönəldir, bununlada mövcud qanunvericiliyin təkmilləşdirilməsi ilə ekoloji vəziyyətin daha da pisləşməsi riskini azaltmaq məqsədi güdən həllin axtarışına yönəlmiş elmi araşdırmaları aktuallaşdırır.

Beynəlxalq ekoloji təhlükəsizliyin, o cümlədən Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyinin, kompleks tədqiqinin aktuallığı ilk növbədə bu sahədə aparılmış araşdırmaların kəsatlığından və hüquqi tənzimləmə təcrübəsinin dinamik inkişafından irəli gəlir. Azərbaycan elmində aparılmış elmi araşdırmalar yalnız regional ekoloji təhlükəsizliyin müəyyən məsələlərini əhatə etmişdir. Eyni zamanda, mövcud yanaşmaların parçalanmasının aradan qaldırılması və ekoloji təhlükəsizliyin təmin edilməsinin vahid konseptual əsaslarının formalaşması tək təhsil və elmi kontekstdə deyil, həmçinin ətraf mühitin istifadə edilməmiş ehtiyatlarının mənimsənilməsi perspektivləri baxımından strateji

əhəmiyyət kəsb edir.

Beləliklə, yuxarıda qeyd olunanlar Azərbaycan Respublikasında normativ və institusional çərçivədə ekoloji təhlükəsizliyin hüquqi tənzimlənməsinin nəzəri və praktiki əsaslarının tədqiqinin aktuallığını əks etdirir.

**Mövzunun elmi araşdırılması səviyyəsi.** Milli və qərb beynəlxalq hüquqi doktrinada ekoloji təhlükəsizlik probleminin müəyyən səviyyədə müxtəlif aspektlərinə toxunulsada, Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyinin təmin edilməsinin hüquqi problemlərinin onların beynəlxalq hüquqi tənzimetməsi mexanizmi ilə qarşılıqlı müstəvidə araşdırılması yalnız məhdud sayda alimlərin fikrini cəlb etməklə mövcud olan problemlərin aradan qaldırılmasını səbəbləndirir.

Müassir milli beynəlxalq hüquqi doktrinada ekoloji təhlükəsizlik problemi beynəlxalq hüququn ayrı-ayrı sahə və institutları çərçivəsində əlaqəli məsələlərin öyrənilməsi zamanı açıqlanır. Bu səpkidə tədqiqatlara Ə.İ.Əliyevin, L.H.Hüseynovun, A.A.Məhərrəmovun, R.F.Məmmədovun, R.K.Məmmədovun, N.A.Səfərovun, Ə.İ.Sadıqovun və digər alimlərin əsəslərini aid etmək olar.

Beynəlxalq ekoloji təhlükəsizlik sferasında yaranan beynəlxalq hüquqi münasibətlər beynəlxalq ətraf mühit hüququnun hüquqi tənzimetmə predmetinə aid edilir. Postsovet məkanında bu istiqamətdə elmi araşdırmalar aparanlar siyahısına M.M.Brinçuk, R.M.Valeyev, M.İ.Vasilyeva, A.Y.Qalyametdinova, M.İ.Karhu, A.M.Kolbasov, L.V.Korbut, M.N.Kopılov, A.V.Kukuşkina, V.M.Kulaqin, O.İ.Makarova, Y.A.Nesterenko, H.A.Sokolova, O.S.Solntsev, L.D.Timçenko, A.S.Timoşenko, T.A.Xojuraya və d. aid etmək olar.

Beynəlxalq ekoloji təhlükəsizlik probleminin işlənilməsinə əhəmiyyətli töhfə F.Biyerman, H.Qaan, L.Qurusvami, A.Dexan, P.-R.Kalas, L.Kotze, H.Mayers, S.Morfi, F.Sands, D.Feyerharst və d. kimi alimlərin əsərləri ilə verilmişdir.

**Tədqiqat obyekti** qismində Azərbaycan Respublikasında ekoloji təhlükəsizliyin təmin edilməsinin beynəlxalq və dövlətdaxili aspektləri çıxış edir.

**Tədqiqatın predmeti** Azərbaycan Respublikasında ekoloji təhlükəsizliyin təmin edilməsinin müasir dövrə təsadüf edən beynəlxalq hüquqi və dövlətdaxili əsaslarının insan, ətraf mühit və qlobal ekoloji çağırışların qarşılıqlı əlaqələrinin hüquqi tənzimlənməsi baxımından səciyələndirilməsindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi beynəlxalq hüquqi və milli hüquqi alətlərin qarşılıqlı əlaqəsi zəminində Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyinin hüquqi təminetməsini səciyələndirməkdən, məzkur sahənin tənzimlənməsinin müəyyən boşluqlarının və hüquqi aspektlərinin qabardılmasından, onların beynəlxalq hüquqi və dövlətdaxili səviyyədə aradan qaldırılmasından ibarətdir. Bu məqsədə nail olunması istiqamətində aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:



- ekoloji təhlükəsizliyin hüquqi təbiətinin öyrənilməsinə dair konseptual baxışların ümumiləşdirilməsi və onun ümumiyyətlə beynəlxalq təhlükəsizlik sistemində yerinin müəyyənləşdirilməsi;
- ekoloji təhlükəsizliyin ekoloji insan hüquqlarının realizə edilməsi sistemində ekoloji təhlükəsizliyinin rolunu təsvir etmək;
- ayrı-ayrı hüquqi tənzimləmə sahələrinin (iqlim dəyişikliyi, meşələrin qorunması, torpaqdan davamlı istifadə, bioloji müxtəlifliyin təmin ediməsi) nümunəsində ekoloji təhlükəsizliyin təmin edilməsinin beynəlxalq hüquqi və dövlətdaxili müstəvidə qarşılıqlı əlaqəsinin xüsusiyyətlərinin müəyyən edilməsi;
- davamlı inkişaf baxımından Azərbaycan Respublikasının milli təhlükəsizlik sistemində ekoloji təhlükəsizliyin rolu və yerinin müəyyən edilməsi;
- ekosidə görə məsuliyyət konsepsiyasının təsvirinin aparılması, onun ekoloji təhlükəsizliyin təmin edilməsi mexanizmində yerinin və müassir zamanda inkişaf xüsusiyyətlərinin açıqlanması;
- ekoloji təhlükəsizliyin təmin edilməsində milli cinayət hüququ vasitəsilə ətraf mühitin qorunması üzrə beynəlxalq nümunəvi normaların yerinin müəyyən edilməsi;
- Ermənistanın işğal etdiyi Azərbaycan Respublikasının ərazilərində meşələrin və torpaqların məhv edilməsi, faydalı qazıntıların dağıdılması, o cümlədən ətraf mühitə mənfi təsir göstərən digər hərəkətlərin edilməsi fonunda ətraf mühitin mühafizəsini müharibə zamanı (hərbi əməliyyatlar zamanı) və müharibədən sonrakı dövrdə mühafizəsinin fərqiləşdirilməsi;
- ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində (məhkəmə araşdırılması əsasında) beynəlxalq mübahisələrin institusional vasitələrlə həll edilməsinin inkişaf təmayüllərinin aşkarlanması;
- əvvəlki ekoloji balansın bərpa olunmasının mümkünsüzlüyü fonunda, profilaktik tədbirlərin əhəmiyyətini və ekoloji hüquqpozmaların məsuliyyətinin gücləndirilməsini qabartmaq;
- ekoloji təhlükəsizliyin regional səviyyədə (Xəzəryanı dövlətlərin misalında) möhkəmlənməsinin və inkişafında müqavilə əməkdaşlığının yerinin müəyyən edilməsi;
- beynəlxalq mübahisətlərin həlli üçün institusional mexanizmlərin inkişaf tendensiyalarının müəyyən edilməsi;
- müasir ekoloji böhran şəraitində Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyini təmin edən problemli məsələlərin aşkarlanması;
- Azərbaycan Respublikasında ətraf mühitin ayrı-ayrı sahələnin beynəlxalq öhdəliklərin realizə edilməsi baxımından hüquqi tənzimlənməsi nümunəsində ekoloji təhlükəsizliyin normativ təmin edilməsinin xüsusiyyətlərinin səciyələndirilməsi;

- Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyini təmin etmək üçün ekoloji təhsilin və ekoloji mədəniyyətin tətbiqinin əhəmiyyətinin aşlanması;

- Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyini təmin etmək sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinin zəruriliyinin təsdiq edilməsi.

**Tədqiqatın metodoloji əsası**. Tədqiqatın metodoloji əsasını elmi biliklərin dialektik metodu təşkil edir. Müəllif tərəfindən sistem, struktur və funksional analizin ümumelmi metodları, həmçinin tədqiqat xüsusi metodları: hüquqi müqayisə, hüquqi modelləşdirmə, formal-məntiqi, tarixi və proqnozlaşdırma və s. istifadə edilmişdir.

**Tədqiqatın nəzəri əsası**. Mövzunun mürəkkəbliyi beynəlxalq hüquq, ekologiya hüququ və digər hüquq sahələri sahəsində Azərbaycan və xarici alimlərin əsərlərindən deyil, həm də əlaqəli sahələrin nümayəndələrinin əsərlərindən istifadə etmək zərurətini tələb etdi. Tədqiqat zamanı istifadə olunan elmi əsərlərin kütləsi onun nəzəri əsasını təşkil edir.

**Tədqiqatın normativ əsası**. Tədqiqatın aparılması zamanı müəllif tərəfindən ekoloji hüquq, insan hüquqları, humanitar hüquq sahəsində beynəlxalq və dövlətdaxili normativ hüquqi aktlara, o cümlədən qarşıya qoyumuş tədqiqat sahəsinin hərtərəfli təhlilini təmin edən nəzəri müddəalara istinad edilir. Ekoloji təhlükəsizlik problemi ümumi beynəlxalq universal və regional təhlükəsizlik, ümumiyyətlə isə insan hüquqlarının təmin edilməsi kontekstində baxılır.

**Tədqiqatın elmi yeniliyi** onda ifadə olunur ki, dissertasiya işi Azərbaycan beynəlxalq hüquq elmində müasir beynəlxalq hüquq kontekstində Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyinin nəzəri və praktiki aspektlərinə dair ilk monoqrafik tədqiqatdır.

Məcmusu böyük elmi problemin həlli kimi tövsiyə edilə bilən müəllif tərəfindən bir sıra nəzəri və praktiki tövsiyələr irəli sürülmüşdür:

- ekoloji təhlükəsizliyin təmin edilməsi məsələsinə aid mövcud beynəlxalq hüquqi və dövlətdaxili aktlar səciyyələndirilir, ekoloji təhlükəsziliyin mahiyyətinin açıqlayan milli və xarici hüquq doktrinasındakı konseptual yanaşmalar ümumiləşdirilir və sistemləşdirilir;

- ümumən və Azərbaycan Respublikasına münasibətdə ekoloji təhlükəsizliyin normativ təmin edilməsində müqavilə mexanizmlərinin yerinin müəyyən edilməsi;

- ekoloji hüquqların (xüsusəndə sağlam ətraf mühit hüququ, ətraf mühitə dair məlumat almaq hüququ, su hüququ) təmin edilməsində ekoloji təhlükəsizliyin yerinin müəyyən edilməsi;

- regional səviyyədə (Xəzəryanı dövlətlərin əməkdaşlığının timsalında) ekoloji təhlükəsizliyin beynəlxalq hüquqi təmin edilməsinin səciyyələndirilməsi;



- BMT səviyyəsində ekoloji təhlkəsizliyin təmin edilməsi məsələsində müqavilə əməkdaşlığının inkişaf xüsusiyyətlərinin və xarakterik əlamətlərinin açıqlanması;

- ekoloji təhlükəsizliyin təmin edilməsi kontekstində ekosidə görə məsuliyyətin müəyyən edilməsinə dair konseptual yanaşmaların və beynəlxalq hüquqi müstəvidə əkosidin kriminallaşmasına dair əsas çağırışların açıqlanması;

- beynəlxalq hüquqi və dövlətdaxili tənzimləmə səviyyələrinin qarşılıqlı əlaqəsi müstəvisində ətraf mühitin ayrı-ayrı sahələrinin (iqlim dəyişiklikləri, meşələrin qorunması, torpaqdan davamlı istifadə, bioloji müxtəlifliyin təmin edilməsi) normativ hüquqi tənzimlənməsi nümunəsində ekoloji təhlükəsizliyin təmin edilməsinin xüsusiyyətləri və inkişaf meyllərinin müəyyən edilməsi;

- Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyinin təmin edilməsinin normativ əsaslarının təkmilləğdirilməsi istiqamətində təkliflərin işlənilməsi.

Tədqiqatın elmi yeniliyi müfadiəyə çıxarılan aşağıdakı **yeni elmi müddəalarda** ifadə olunur**:**

1. İnsan fəaliyyətinin təsiri nəticəsində ətraf mühitin deqradasiyası və onun miqyası insanlığın mövcudluğunun təməlinə təhlükə yaratmış, bu isə beynəlxalq hüquq müstəvisində təhlükəsizlik konsepsiyasının ənənəvi anlayışının təkamülünə səbəb olmuşdur. Bu kontekstdə ekoloji təhlükəsizlik ümumi təhlükəsizlik sisteminin ayrılmaz hissəsi kimi nəzərdən keçirilir. Bu zaman ekoloji təhlükəsizlik sferasının həm normativ-hüquqi həmçinin institusional səviyyədə beynəlxalq hüquqi və dövlətdaxili tənzimlənməsinin qarşılıqlı əlaqəsi xüsusi önəm kəsb edir. Lakin dünya birliyinin müassir inkişafında ekoloji çağırışlara, xüsusəndə, universal səviyyədə beynəlxalq hüquqi əməkdaşlıq mexanizminə xas olan xüsusiyyətlərin (müqavilə tənzimlənməsinin parçalanması, maliyyə çatışmazlığı və s.) təsirinə baxmayaraq, bu cür qarşılıqlı əlaqənin göstəriciləri qeyriqənaətbəxş qalmaqdadır.

2. "Ekoloji təhlükəsizlik" anlayışının normativ məzmununun müəyyən edilməsi beynəlxalq hüquqi və dövlətdaxali səviyyələrdə hüquqi tənzimetmənin inkişaf mexanizmlərinin əsas istiqamətlərinin aşkarlanmasına dəstək ola bilər. Belə bir məqsədin həyata keçirilməsinin mürəkkəbliyi "ekoloji təhlükəsizlik" anlayışına dair müxtəlif konseptual yanaşmaların - onun yalnız hərbi əməliyyatların mənfi ekoloji nəticələri ilə məhdudlaşdırılmasından davamlı inkişafın ətraf mühit ölçüsünədək - mövcudluğundan, həmçinin əhatə olunan ictimai münasibətlərin kompleks təbiətindən irəli gəlir.

3. Ekoloji təhlükəsizlik ekoloji insan hüquqlarının lazımi təmin edilməsində ilkin şərtdir. Bununla yanaşı sonuncuların beynəlxalq hüquqi kontekstdə təsdiqlənməsinin qəliz, ləng və parçalanmış proses olması ekoloji təhlükəsizliyinin möhkəmləndirilməsində sabit münasibətlərin formalaşması üçün

əlverişli deyil. Bundan əlavə ekoloji hüquqlar digər bir sıra fundamental hüquqların məzmununu belə dəyişərək təmin edilməsinə öz birbaşa təsirini göstərir.

Vurğulamaq lazımdır ki, 1970-ci illərdən başlamış ekoloji insan hüquqlarının təsdiqlənməsi "ekoloji insan hüquqları"nın normativ məzmununun təsdiqlənməsinə və həmin hüquqları məcəlləşdirilməsinə, xüsusi beynəlxalq hüquqi aktların qəbuluna gətirib çıxarmamışdır. Bunun nəticəsi olaraq dövlətlər tərəfindən həmin hüquqların təmin edilməsi üsullarınının fərdi olaraq seçilməsi dünya üzrə ekoloji hüquqların həm məzmununun, həmçinin qorunma səviyyəsinin ciddi fərqlənməsinə səbəb olur. Bu vəziyyətdə həm dövlətlər səviyyəsində, həmçinin qeyri-dövlət sektorunun nümayəndələri səviyyəsində ekoloji insan hüquqlarının siyahısının təsdiqlənməsi sahəsində mövcud boşluqların aradan qaldırılması beynəlxalq birliyin imkanlarının birləşməsini son dərəcə əhəmiyyətli edir.

4. Ekoloji hüquqlar sırasında əlbətdəki mühüm yeri sağlam ətraf mühitdə yaşamaq hüququ tutur. Bu hüququn realizə edilməsi digər ekoloji hüquqların həyata keçirilməsi prosesində baza və hüquqi tərkibini formalaşdırır. Ekoloji hüquqların universallığı kontekstində sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsinin mühüm şərti beynəlxalq hüquqi və dövlətdaxili təmin etmə səviyyəsinin qarşılıqlı əlaqəsidir. Bu hüququn mahiyyəti Azərbaycan Respublikasının Konstitusiyasında (Maddə 39 "Sağlam ətraf mühitdə yaşamaq hüququ") əks olunması ilə ifadə olunur. Bununla yanaşı qanunvericilik səviyyəsində məzkur hüququn birbaşa tətbiqi və bir sıra ondan irəli gələn hüquqların asıllığı təsdiqlənir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinin realizə mexanizmi beynəlxalq hüquqi öhdəliklərlə dövlətlərin ekoloji insan hüququların tətbiqetmə təminatları arasındakı ağlabatan balansa nail olmaq məqsədini güdür.

5. Sağlam ətraf mühitdə yaşamaq hüququnun təminetmə səviyyəsi ətraf mühitə dair informasiya almaq hüququ prizmasından nəzərdən keçirilir. Belə ki, məlumat almaq hüququ məlumat bazası yaratmaqla sağlam ətraf mühitdə yaşamaq hüququnun realizə səviyyəsini və qarşıya qoyulmuş məqsədlərə nail olmağın istiqamətlərini müəyyən etməyə imkan verir. "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikası Qanunu həmin hüququn müstəqil olaraq normativ təsdiqlənməsini əks etdirməklə yanaşı onun mahiyyətini vurğulayır, Ətraf mühiti əhatə edən məlumatların çatımlılığı, qərar qəbul edilərkən ictimaiyyətin iştirakı və ədalət mühakiməsinin çatımlılığına dair Konvensiyadan (Orhus Konvensiyası) irəli gələn öhdəliklərinə bağlılığı əks etdirir.

Lakin bundan əlavə qeyd etmək lazımdır ki, birincisi, ucqar rayonlarda informasiya əldə etmək hüququnun həyata keçirilməsi üçün müvafiq şəraitin təmin edilməsi, ikincisi, qeyri-hökumət təşkilatlarının və ya korporasiyaların kütləvi informasiya vasitələri imkanlarından istifadə edərək əldə olunan məlumatlardan sui-istifadə ehtimalını aradan qaldırır.



6. Ekoloji təhlükəsizliyin təmin edilməsi mexanizmində ekoloji cinayətlərə görə, xüsusəndə ekosidə görə, məsuliyyət xüsusi yer tutur. Ekosidə görə cinayət məsuliyyətinə cəlbetmənin normativ əsaslarının müəyyən edilməsində çətinlik əsasən ekosidin cinayət kimi mahiyyətinə fərqli konseptual yanaşmaların olmasıdır. Hüquq doktrinasında ekosid konsepsiyasının anlayışında olan əsas mövcud fərqlər şamil olma sahəsində, subyektiv tərəfinə münasibətdə, subyekt dairəsində, "ekosid" anlayışını formalaşdıran əməllər siyahısında, o cümlədən ətraf mühitə vurulan ziyanın şərtlərinin səciyyəsində ifadə olunur. Beynəlxalq hüquqi kontekstdə ekosidin cinayət kimi dəyərləndirilməsi prosesi dövlətlərin mövqelərindəki fərqlərdən də çətinləşir, xüsusəndə günahın cinayət tərkibinin vacib tərkib hissəsi kimi və ya daha geniş əhali qruplarının inkişaf hüququnun təmin edilməsi vacibliyi qeyd edildikdə ekosidin subutetmə mexanizminin tanınması tələbinə istinadən ekosidə görə məsuliyyətə cəlb etmək imkanının olması məsələsində. Bu cür uyğunsuzluqların həll edilməsi ekosidin kriminallaşmasının vacib şərti olmaqla, ətraf mühitə ziyan vuran cinayətlərlə mübarizənin effektivliyinin səviyyəsinin artmasına səbəb olacaqdır.

7. Qloballaşmanın ətraf mühitə təziqinin artması fonunda ekoloji təhlükəsizliyin təmin edilməsi universal və regional beynəlxalq hüquqi aktlarda əksini tapmış beynəlxalq hüquqi ölçülərin fəal inkişafını tələb edir. Beynəlxalq hüquqi tənzimetmənin həlledici elementi olaraq ekoloji təhlükəsizliyin təmin edilməsi məsələləri üzrə müqavilə əməkdaşlığının xüsusiyyətləri və xas olan cəhətləri həm dünya birliyi, həmçinin ayrı-ayrı dövlətlər səviyyəsində qüvvədə olan normaların effektivliyində öz əksini tapır. BMT səviyyəsində ekoloji təhlükəsiziliyin təmin edilməsi məsələsi üzrə milli implementasiya mexanizminə təsir edən müqavilə əməkdaşlığının xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

1) beynəlxalq hüquqi tənzimetmə predmetinin genişlənməsi, iştirakçı dövlətlərin sayının artması və müqavilə müddəalarının təkmilləşdirilməsi vasitəsi ilə ətraf mühit məsələri üzrə BMT çərçivəsində müqavilə əməkdaşlığı mexanizmlərinin keyfiyyət və kəmiyyətçə inkişafı;

2) protokol və ya əlavələr hesabına mövcud hüquqi müqavilə rejiminin iştirakçı dövlətlər tərəfindən təmin edilməsi üçün imkanlarının geniş alətlər dəstindən istifadə;

3) ətraf mühitin qorunmasının təmin edilməsi və ekoloji təhlükəsizliyin lazımi səviyyəsi sferasında BMT-nin üzv dövlətlərinin əməkdaşlığının müqavilə mexanizmlərinin klasterləşməsinin tədricən gücləndirilməsi meyli.

8. Müqavilə öhdəlikləri onların realizə edilməsi üçün müvafiq dövlətdaxili normativ və institusional şərtlərin yaradılmasını tələb edir. BMT çərçivəsində ekoloji təhlükəsizliyinin təmin edilməsi məsələsi üzrə müqavilə əməkdaşlığı nümunəsində müqavilə tələblərinin realizəsinin aşağıdakı problemli aspektlərini qeyd etmək olar:

1) müqavilələrin sayının artması mövcud beynəlxalq hüquqi rejimin parçalanması təhlükəsini yaradır;

2) BMT-nin üzv dövlətlərinin müqavilə əməkdaşlığı çərçivəsində beynəlxalq hüquqi normaların riayyət edilməsinə məcburetmə mexanizminin olmaması, iştirakçı dövlətlərin səylərinin effektivliyini aşağı salır;

3) BMT-nin üzv dövlətləri sırasından müqavilə tələblərinin realizəsi inkişafda olan dövlətlər üçün əhəmiyyətli çağırış formalaşdırmaqla kifayət qədər maliyyə, kadr və elmi resursların isifadəsini nəzərdə tutur.

Bu kontekstdə müqavilə öhdəliklərinin pozulmasına, xüsusəndə maddi ziyanın ödənilməsi ətraf mühitə dəyən ziyanın hər zaman tam qarşılamadığını nəzərə alaraq, görə məsuliyyətə cəlb etmək üçün lazımi əsasların formalaşmasına tələb aktuallaşır. Bu halda qarşısını almaq və ətraf mühit sahəsində risklərin aradan qaldırılması üçün hüquqi və institusional bazanın yaradılması prioritet olmalıdır.

9. BMT səviyyəsində ekoloji təhlükəsizlik məsələləri üzrə əməkdaşlıq prosesində iştirakçı dövlətlər arasında vahid mövqeyə nail olmaq çətinliyi və regional tələblərin əks olunmasının məhdudluğu dövlətlər tərəfindən ekoloji təhlükəsizliyin təmin edilməsi sferasında qarşılıqlı əlaqədə regional müqavilə alətlərinin istifadəsinin məqsədəuyğunluğunu əsaslandırır. Bu kontekstdə bariz nümunə Xəzər dənizi regionudur, burada Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında 04.11.2003-cü il Çərçivə Konvensiyası (Tehran Konvensiyası) vasitəsilə regional çərçivədə ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində iştirakçı dövlətlər arasında daimi dialoqun əsasının qoyulmasına nail olunmuşdur. Belə bir dialoqun səmərəliyini təsdiq edən nəticə Tehran Konvensiyasının müddəalarının 29.09.2014-cü ildə qəbul edilmiş Xəzər dənizinin su bioloji resurslarının mühafizəsi və səmərəli istifadəsi haqqında və Xəzər dənizinin hidrometrologiyası sahəsində əməkdaşlıq haqqında Sazişlərlə inkişaf etdirilməsi olmuşdur. Bununla yanaşı bu cür inkişaf Tehran Konvensiyası ilə təsdiq edilən Xəzəryanı dövlətlərin əməkdaşlıq təcrübəsində problemli aspektlərin mövcudluğunu istisna etmir:

1) müqavilə müddəalarının çərçivə xarakteri onların protokol və əlavələrdə sonrakı dəqiqləşdirilməsini gündəmə gətirir. Lakin bu proses hər zaman gözlənilən effektivliyi nümayiş etdirə bilmir və Xəzəryanı dövlətlərin münaqişəli mövqelənin mövcudluğu ilə qəlizləşir;

2) müqavilə müddəalarının realizə edilməsində ictimaiyyətin məhdud rolu;

3) Tehran Konvensiyasında istifadə edilən bəzi ifadələrin (məsələn, 5-ci maddənin "b" bəndi ziyanın ödənilməsi imkanını birbaşa daxil etmir) məhdud və/və ya qeyri-dəqiqliyi.

10. Ekoloji təhlükəsizliyin təmin edilməsi məsələləri üzrə müqavilə əməkdaşlığının realizəsində ətraf mühitin mühafizəsinə dair model (nümunəvi) normalara, o cümlədən cinayət-hüquqi aspektdə, önəmli yer ayrılır. Onların istifadəsi əməkdaşlıq edən dövlətlərdə vahid normativ-hüquqi tənzimetmə əsaslarının formalaşmasına səbəb olur, bu isə konkret sahə üzrə müqavilə müddəalarının realizəsi üçün vacib şərtdir. Model normaların mahiyyəti daha effektiv əməkdaşlıq məqsədlərinə nail olmaq və müqavilə normalarının implementasiyasında vahid təcrübənin formalaşması məqsədilə milli qanunverici üçün dəqiq çərçivənin müəyyən edilməsinə yönəlir. Bu cür təcrübənin istifadəsinin effektivliyi həmçinin regional əməkdaşlıq çərçivəsində qəbul edilmiş Cinayət qanunvericiliyi vasitəsilə ətraf mühitin mühafizəsinə dair 04.11.1998-ci il Konvensiyası, Cinayət qanunvericiliyi vasitəsilə ətraf mühitin mühafizəsinə dair 19.11.2008-ci Avropa İttifaqının Direktivi (2008/99) və MDB səviyyəsində model qanunvericilik aktları ilə də təsdiqlənir. Lakin qeyd etmək lazımdır ki, MDB, xüsusəndə Xəzəryanı dövlətlər səviyyəsində, ekoloji cinayətlərə görə cinayət məsuliyyətinə cəlbetmə kontekstində ətraf mühitin qorunmasının təmin edilməsinə dair model normaların imkanlarından tam istifadəsi edilməmişdir.

11. Ekoloji durumun pisləşməsi ilə bağlı artan neqativ nəticələrə cavab olaraq mühüm addım kimi Beynəlxalq ətraf mühit məhkəməsinin yaranması qəbul olunur. Bu addım birincisi, ətraf mühitə dair dövlətlərin müqavilə öhdəliklərinin riayyət edilməsi səviyyəsinin təsirli artmasına səbəb olacaq, ikincisi, ekoloji insan hüquqlarının lazımi müdafiəsini təmin edəcək, üçüncüsü, ekoloji münasibətlərin tənzimlənməsi kontekstində milli yanaşmaların yaxınlaşmasını təmin edəcək.

Odur ki, Beynəlxalq ətraf mühit məhkəməsinin ekoloji təhlükəsizlik sisteminə daxil edilməsi alternativsizdir. Belə ki, ətraf mühit sahəsində mübahisələrin həllinə və müqavilə normalarının təmin edilməsinə dair mexanizmlər tam təkmil deyil. Bununla yanaşı beynəlxalq birliyin səylərinin günahkarların məsuliyyətə cəlb edilməsinə, ətraf mühit sahəsində risklərin qarşısının alınması və aradan qaldırılması istiqamətinə yönəldilməsi tələb olunur.

12. Müasir dövrdə ekoloji təhlükəsizliyin təmin edilməsi kontekstində planetar miqyasda iqlimin beynəlxalq hüquqi mühafizəsinin inkişafı xüsusi önəm kəsb edir. 12 dekabr 2015-ci il tarixdə İqlim üzrə Paris Sazişinin qəbul edilməsi ekoloji təhlükəsizliyin beynəlxalq hüquqi əsasının inkişafında mütərəqqi addım kimi qəbul edilməlidir. Qeyd etmək lazımdır ki, Paris Sazışında istifadə edilən yanaşma Kioto protokolunda istifadə edilən yanaşmadan fərqlidir və lazımi tədbirlərin milli müstəvidə müəyyən edilməsinə, şəffaflıq rejiminin nizam-intizam təsirinə və qarşıya qoyulmuş məqsədlərin nail olmasında tədbirlərin nail olmasında tərəqqiyə yönəlmiş tədbirlərin qlobal monitorinqinə əsaslanır.

Yeni yanaşmanın itifadəsində təcrübənin olmaması müvafiq qaydaların həyata keçirilməsinin təmin edilməsi baxımından bəzi problemlər yaradır. Risk-

lər Paris Sazişi çərçivəsində tələb olunan tədbirlərin effektivliyinin təmin edilməsi zamanı qeyd olunan problemli aspektlərlə bağlı dahada güclənir:

1) iqlimin mühafizəsinin beynəlxalq hüquqi rejiminin sistemliyini, mövcud yanaşmaların parçalanmasını aradan qaldırmaq vasitəsilə (məsələn, qara karbonun istixana effektinin yaranmasına mənfi təsirini nəzərə almayan) təmin etmək vacibliyi;

2) Paris Sazişi üzrə öhdəliklərin spesifik hüquqi təbiəti və anlaşma xüsusiyyətləri nəzərə alınaraq iştirakçı dövlətlər tərəfindən implementasiyasının effektivliyini təmin etmək;

3) istixana effektinin planetar miqyasda azaldılması istiqamətində atılan addımların maksimal effektivliyini təmin etmək məqsədilə perspektivli texnologiyaların axtarılması və inkişafı nəzərə alınmaqla Paris Sazişinin daha geniş tənzimetmə sahəsinin dəstəklənməsi.

13. XX əsrin əvvəlində bioloji müxtəlifliyi təmin etmək məsələlərində beynəlxalq hüquqi əməkdaşlığın yaranması və onun inkişafı "ekoloji təhlükəsizlik" anlayışının müəyyənləşdirilməsində kompleks yanaşmanın formalaşmasının səbəbi oldu və 05.06.1992-ci il tarixli Bioloji müxtəlifliyə dair Konvensiyanın müddəalarında öz əksini tapdı. Beynəlxalq hüquqi öhdəliklərin ədalətli həyata keçirilməsinə nail olmağa çalışan Azərbaycan Respublikası milli səviyyədə bioloji müxtəlifliyin təmin edilməsi mexanizmini genişləndirir və möhkəmləndirir, bu isə tətbiq edilən tədbirlərin lazımi effektivliyinin nail olmasına köməklik göstərir. Bununla yanaşı hesab edirik ki, bioloji müxtəlifliyə dair qarşıya qoyulan məqsədlərə nail olmasına yönəlmiş müvafiq tədbirlər nəticəsində, birincisi, maliyyə mexanizmləri (məsələn, vergitutma) vasitəsilə ekoloji bitərəf mövqelərin istifadə edilməsinə qeyri-dövlət sektorunu şövqləndirmək, ikincisi, bioloji müxtəlifliyə dair hüquqpozuntularının neqativ nəticələrinin sistem xarakterliyi nəzərə alınmaqla, preventiv yanaşmanın daha geniş istifadə edilməsi, effektivliyinin artması mümkündür.

14. Ekoloji təhlükəsizlik konsepsiyasının normativ əsaslarının inkişafı baxımından meşələrin qorunmasının və davamlı inkişafının beynəlxalq hüquqi təminetmə rejimi vacib yer tutur. Bununla yanaşı hazırda ekoloji çağırışlar kontekstində mövcud rejimlər qənaətbəxş effektivlik və inkişaf səviyyəsi ilə xarakterizə edilmir. Birincisi, meşələr üzrə BMT Forumu vacib elementi olan meşələr üzrə beynəlxalq rejim təşkilatı-nöqteyi nəzərdən qəliz, resurslar və səlahiyyətlər baxımından məhduddur. İkincisi, meşələrin qorunmasının və inkişafının təmin edilməsinə dair normaların tövsiyyə xarakterli olması müvafiq münasibətlər qrupunun tənzimetməsinin beynəlxalq hüquqi əsaslarının formalaşmasına əlverişli şərait yaratmır. Üçüncüsü, meşələrin qorunmasına və davamlı inkişafına dair qüvvədə olan beynəlxalq razılaşmalar (12.12.2015-ci il İqlim üzrə Paris Sazişi, 27.01.2006 Tropik ağac üzrə beynəlxalq Razılaşma və d.) bu



müqavilələrin əsas diqqətini əks etdirən parçalanmış yanaşmaların istifadəsini nəzərdə tutur. Bu vəziyyətdə meşələr üzrə hərtərəfli universal və kompleks razılaşmanın işlənilməsi və imzalanması məqsədəmüvafiq hesab edilir.

Meşələrin hərbi münaqişələr zamanı və münaqişəsonrakı vəziyyətdə qorunmasıda xüsusi önəm kəsb edir. Hərbi münaqişələr zamanı insanların meşələrin normal inkişafına fəal müdaxiləsi ekosistemə ciddi və bərpaedilməyən ziyan vurur. Bu isə hərbi münaqişələr zamanı meşələrin qorunmasına yönəlmiş beynəlxalq hüquqi normaların effektivliyinin artırılmasını tələb edir.

Təsdiq etmək lazımdır ki, dövlətlər meşələrin qorunması və davamlı istifadəsinə görə tək öz yurusdiksiya daxilində deyil, o cümlədən onların nəzarəti altında olan ərazilərdə də məsuliyyət daşıyır. Meşələrin istifadəsində, qorunmasında və inkişafında alternativ imkanların istifadə sahəsinin genişləndirilməsi, o cümlədən milli səviyyədə onların bərpa edilməsi istiqamətində fəal addımların atılması meşələrin qorunmasına səbəb olacaqdır.

Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının fəaliyyətinin təhlili meşə təsərrüfatının idarə edilməsi sistemi çərçivəsində iştirak edən müxtəlif orqan və idarələrin fəaliyyətinin koordinasiyasının artırılmasının, o cümlədən, onların meşə qanunvericiliyinin pozulmasına, xüsusəndə meşələrin qanunsuz qırılmasına, görə şəxslərin məsuliyyətə cəlb edilməsi kontekstində fəaliyyətinin effektivliyinin artırılmasının vacibliyi vurğulanır.

15. Ərzaq təhlükəsizliyi və yoxsulluğun azaldılmasını təmin edəcək torpaqların səmərəli istifadəsi və qorunması üzrə addımlarsız davamlı inkişafı təsəffür etmək mümkün deyil. 1970-ci illərdən beynəlxalq-hüquqi təcrübədəki digər tənzimetmə sahələri çərçivəsində (məsələn, Səhralaşma ilə mübarizəyə dair BMT Konvensiyası (1994)) torpaqların qorunması məsələlərinin baxılmasında istifadə edilən yanaşmalar torpaqların hərtərəfli və kompleks qorunmasını və davamlı torpaqdan istifadənin tətbiqini təmin etmir. Bu baxımdan torpaqların qorunması və davamlı istifadəsini kompleks və hərtərəfli təmin edə biləcək universal səviyyədə müstəqil beynəlxalq hüquqi alətin işlənilməsinin və imzalanmasının vacibliyi qeyd edilir. Təbiidir ki, bu sahədə mövcud olan beynəlxalq hüquqi aktlar torpaqların qorunması məsələlərində milli qanunvericilik üçün, o cümlədən Azərbaycan Respublikasında, model olaraq nəzərdən keçiriləcək. Milli-hüquqi aktlarda torpaqların qorunması səviyyəsi nəticə etibarı ilə ümumilikdə insanlığın qorunmasındakı vacibliyinin göstəricisidir. Effektivliyin artırılmasının vacib əlaməti torpaq ehtiyatlarının lazımi səviyyədə hüquqi müdafiəsidir. Bu baxımdan Azərbaycan Respublikasında torpaqların statusunun möhkəmlənməsi və onların qorunması istiqamətində aşağıdakı mühüm addımları qeyd etmək olar:

1) cərimə sanksiyasına əlavə olaraq torpaq örtüyünə dəymiş ziyanın ödənilməsini məsuliyyətin forması qismində qəbul edilməsi;

2) normativ aktlarda “torpaq” anlayışının fərqləndirilməsi və dəqiqləşdirilməsi;

3) torpaq qatına, o cümlədən dövlət torpaq qatına, ziyanın qarşısının alınması ilə bağlı preventiv tədbirlərin gücləndirilməsi;

4) əhali arasında yüksək ekoloji süur səviyyəsinin formalaşması üçün genişmiqyaslı təhsil işinin dəstəklənməsi.

16. Ətraf mühitin müxtəlif sahələrinin beynəlxalq hüquqi mühafizəsinin qarşılıqlı əlaqə kontekstində baxılması labüddür. Belə ki, ətraf mühitin tərkib hissələri biri-birinə qarşlıqlı təsir edən və digər elementlərlə qarşılıqlı sistem əlaqəsində olan onun əvəzedilməz hissələridir.

17. Miqyasına və intensivliyinə görə ekoloji təhlükəsizliyin təmin edilməsinə və nəticə etibarı ilə, ekoloji insan hüquqlarına mənfi təsir göstərən silahlı münaqişələrdir. Hərçən ki, beynəlxalq hümanitar hüququn normalarının təhlili onların silahlı münaqişə zamanı, yəni hərbi əməliyyaların aparılması zamanı, ətraf mühitin mühafizəsinə yönəldiyini nəzərə alsaq, o zaman ətraf mühitin münaqişə zamanı, o cümlədən münaqişədən sonrakı dönəmdə mühafizəsini fərqləndirmək lazımdır. Ekoloji təhlükəsizliyin effektivliyini artırmaq naminə Cenevrə Konvensiyalarına silahlı münaqişələr zamanı ekoloji hüquqların təmin edilməsinə yönəlmiş əlavə protokolun qəbulunun vaxtı çatdığını hesab edirik. Şübhəsiz ki, Ermənistan tərəfindən Azərbaycan Respublikasının 20% ərazisinin işğal etməsi ekoloji təhlükəsizliyədə təsirsiz ötüşməmişdir. Belə ki, bu işğal nəticəsində bərpası demək olar ki, mümkün olmayan ətraf mühitin komponentlərinin məhv edilməsi baş vermişdir. İşğalçı tərəfindən “yanmış torpaq” taktikasının tətbiqi və günahkarların cəzasız qalması ekoloji təhlükəsizliyin təmin edilməsi baxımından qəbuledilməzdir. Bu baxımdan Azərbaycan Respublikasının müvafiq orqanları tərə-findən gələcəkdə iş materiallarının beynəlxalq nəzarət təsisatlarına ötürülməsi imkanının mövcudluğu nəzərə alınmaqla meşələrin, torpaqların və ətraf mühitin digər komponentlərinin məhv edilməsi faktı ilə bağlı cinayət işinin qaldırılması yerinə düşərdi.

18. Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyi beynəlxalq və dövlətdaxili aspektlərin sıx qarşılıqlı əlaqəsi müstəvisində təmin oluna bilər. Bu Azərbaycan Respublikasının beynəlxalq müqavilələrdə fəal iştirak etməsində, geniş milli normativ hüquqi bazanın formalaşmasında, o cümlədən ətraf mühitin mühafizəsinə yönəldilmiş genişmiqyaslı dövlətdaxili proqramların realizə edilməsində ifadə olunur. Sovetlər dönəmində ekoloji təhlükəsizliyin təmin edilməsinin ikinci planda yerləşdiyini nəzərə alsaq, müstəqillik əldə edən postsovet dövlətlərində ekoloji tarazlığın saxlanılması üçün böyük maliyyə vəsaitləri tələb olunurdu. Əgər dövlətimiz üçün müstəqilliyin ilk illərində vəsaitlərin çatışmamazlığından əziyyət çəkilirdirsə, XX əsrin əvvəlindən ətraf mühitin mühafizəsi sahəsinə və bərpa edilməsinə böyük miqdarda maliyyə yönəldilmişdir. Ekoloji



təhlükəsizliyin prioritetliyi yalnız ekoloji istiqamətli normativ hüquqi aktlarda əks olunması ilə deyil, o cümlədən sosial-iqtisadi istiqamətdə də ifadə olunur.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti** onunla ifadə olunur ki, iş üzrə əsas müddəalar və nəticələr ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində hüquqyaradıcılığı və hüquqtətbiqetmə fəaliyyətinin təkmilləşdirilməsində, davamlı inkişaf və ətraf mühitin qorunması məsələlərində Azərbaycan Respublikasının beynəlxalq hüquqi mövqeyinin formalaşmasında, həmçinin gələcək tədqiqatlarda və beynəlxalq hüquq üzrə ümumi və xüsusi kursların tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Beynəlxalq ümumi hüquq kafedrasında yerinə yetirilərək Beynəlxalq ümumi hüquq, Beynəlxal xüsusi hüquq və Avropa hüququ, İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO kafedralarının birgə iclasında müzakirə edilmiş və əsas müdafiəyə tövsiyə edilmişdir.

Dissertasiyanın ayrı-ayrı nəticələri beynəlxalq və dövlətdaxili konfranslarda, “dəyirmi masa” formatında yığıncaqlarda, o cümlədən mühazirələrdə açıqlanmışdır. Dissertasiyanın əsas nəzəri və praktiki nəticələri müəllifin elmi nəşrlərində: dərsliklərdə, monoqrafiyalarda və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən jurnallarda dərc olunmuş məqalələrdə, o cümlədən xarici elmi nəşrlərdə geniş əks olunmuşdur. Bundan əlavə, tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin Hüquq fakültəsində Beynəlxalq ümumi hüquq, Avropa hüququ, Beynəlxalq ekologiya hüququ, Dəniz və enerji hüququ və s. fənlər üzrə keçirilən mühazirələrdə aprobasiyadan keçirilmişdir.

**Dissertasiya işi** giriş, 18 paraqrafı əhatə edən beş fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş hissəsində** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, işlənilmə səviyyəsi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, elmi yeniliyi əsaslandırılır, müdafiəyə çıxarılan yeni elmi müddəalar və onların təcrübi mahiyyəti, nəticələrinin apro basiyası və dissertasiyanın strukturu barədə açıqlama verilir.

Dissertasiyanın birinci fəsli **“Ekoloji təhlükəsizlik hüquqi tənzimetmə obyekti kimi”** adlanır və üç paraqrafdan ibarətdir.

Birinci paraqrafda - **“Ekoloji təhlükəsizlik” anlayışının şərhinə dair əsas yanaşmalar” -** ekoloji təhlükəsizliyin məzmunu ilə bağlı alimlərin mövqeləri və onların inkişaf tendensiyaları təhlil edilir.

İnsanın ətraf mühitlə qarşılıqlı əlaqəsinin müassir hüquqi tənzimetmə

sistemində "ekoloji təhlükəsizlik" anlayışının əsas rolu həmin anlayışın məzmununa dair mövcud yanaşmaların seçilməsinin vacibliyini, o cümlədən onun "insan təhlükəsizliyi" və ya "beynəlxalq təhlükəsizlik" anlayışları ilə qarşılıqlı əlaqəsini gündəmə gətirir. Sadalanan anlayışlarda "təhlükəsizlik" sözünün ümumi olmasına baxmayaraq, təəssüflər olsun ki, məzkur sozün məzmununa dair birlik müşahidə olunmur. Dövlət-mərkəzli təhlil çərçivəsində təhlükələr bir qayda olaraq hərbi çağırış kimi qəbul olunur və ənənəvi olaraq hərbi güclə əlaqələndirilir, digər amillər isə əlavə kimi baxılır. Bununla yanaşı ətraf mühitin vəziyyətinin pisləşməsinə ekoloji təhlükəsizliyin milli, regional və qlobal səviyyədə təmin edilməsinin mövcud mexanizmi kontekstində çağırış statusu verilməsi elədə yüngül məsələ deyil.

Hesab edilir ki, təhlükəsizlik konsepsiyasının ənənəvi anlayışının ekoloji çağırışlar nəzərə alınmaqla genişlənməsinin məqsədə müvafiq olmamasını dəstəkləyənlərin mövqeyi tam əsaslı görünmür. Birincisi, ekoloji təhlükəsizlik konsepsiyası ənənəvi "təhlükəsizlik" anlayışını əvəz etmir, yalnız müassir reallıqlara və çağırışlara uyğun olaraq onun məhdud olduğu və yeni məzmunla doldurulmasının dərk edilməsini gündəmə gətirir.

İkincisi, ekoloji təhlükəsizliyin təmin edilməsi mexanizmi ənənəvi anlamda yalnız müstəsna hallarda, məsələn, geniş miqyaslı ekoloji fəlakətlərin aradan qaldırılması, təhlükəsizlik alətlərinə müraciəti nəzərdə tutmalıdır.

Üçüncüsü, sadalanan əks arqumentlər ekoloji təhlükəsizlik konsepsiyasının istifadə etmək imkanının olmasından daha çox ənənəvi anlamda təhlükəsizliyin təmin edilməsinin bütövlüyünü və səmərəliyini saxlamaq arzusunu əks etdirir.

Təsdiq edilir ki, təhlükəsizliyin hərbi aspekti nəinki öz əvvəlki mənasını itirmiş, əksinə hansısa dövlətin və ya ümumiyyətlə beynəlxalq birliyin inkişafı kontekstində yeni göstəriciləri (ekoloji, iqtisadi, informasiya və d.) ilə tamamlanmışdır. Müəllifin mövqeyinin etibarlılığı onunla əsaslandırılır ki, müassir dövrdə təhlükəsizlik konsepsiyasının inkişafı qarşıdurma yolu ilə yox, mövcud çağırışlara cavab olaraq hansısa əməkdaşlıq mexanizmlərinin inteqarasiyası istiqamətində inkişaf etdirilir və bununlada təhlükəsizliyin təmin edilməsinin yeni səviyyələrinin formalaşmasına gətirib çıxarır. Məhz buna görə universallıq, komponentlərin asılılığı, qarşılayıcı tədbirlərin üstünlüyü və insanyönümlülük kimi xarakterik xüsusiyyətlərə malik insan təhlükəsizliyinin konsepsiyası irəli sürülmüşdür. Təqdirəlayiqdir ki, insan təhlükəsizliyinə əsas təhdidlər sırasından ekoloji təhdidlərə xüsusi önəm verilir. Ətraf mühitin tənəzzülü və təbii ehtiyatların tükənməsi təhlükəsizliyin hərbi-siyasi aspektdə ənənəvi anlayışının nəinki insan təhlükəsiliyi konsepsiyasının təsdiqi və inkişafı vasitəsilə, həm də beynəlxalq hüquqi əməkdaşlıq mexanizminin möhkəmlənməsi və təkmilləşdirilməsi vasitəsilə də tədricən təkamülünə səbəb olmuşdur.



İkinci paraqraf **- "Ekoloji təhlükəsizliyin təmin edilməsinin beynəlxalq hüquqi tənzimetməsinin formalaşması və inkişafı**" - müntəzəmliyinin müəyyən edilməsi, imkanların təkmilləşdirilməsi və inkişaf perspektivləri baxımından ekoloji təhlükəsizliyin beynəlxalq hüquqi tənzimlənməsinin təkamülü probleminə həsr olunur.

İddia edilir ki, ekoloji təhlükəsizliyin beynəlxalq hüquqi tənzimlənməsi çətin, ardıcıl və dinamik inkişaf edən mexanizm olaraq, zamanın ekoloji çağırışlarına cavab olaraq özünün tənzimedici təsirinin genişlənməsi və dərinləşməsi tendensiyasını nümayiş etdirir. Bununla yanaşı həmin inkişafa xas olan xarici və daxili meyarlarla ölçülən xüsusiyyətlər mövcuddur. Həmin xüsusiyyətlər əsasən ekoloji təhlükəsizliyin tənzimlənməsinin beynəlxalq hüquqi əsaslarının məzmununu və təkamülünün gələcək istiqamətlərini normativ və institusional səviyyədə dəqiqləşdirməklə, inkişaf prosesini müəyyən edir.

Ekoloji təhlükəsizlik konsepsiyası həm universal, həm də regional səviyyədə inkişaf edərək, əməkdaşlığın müqavilə və institusional formasına inkişaf meyilli təsir göstərir. Bununla yanaşı, universal səviyyədə:

1) əməkdaşlığın müqavilə əsaslarının inkişafı sistem yanaşmanın təmin edilməsi ehtiyacının formalaşması ilə müşahidə olunur. Bu cür yanaşmanın olmaması mövcud müqavilə mexanizmlərinin sayı və müxtəlifliyi ilə tamamlana bilməz;

2) əməkdaşlığın institusional əsaslarının, xüsusəndə UNEP səviyyəsində, inkişafı onun maliyyə və təşkilatı imkanlarının möhkəmlənməsini tələb edir.

Ekoloji təhlükəsizlik konsepsiyasının tədricən, yavaş, lakin davamlı və hərtərəfli olaraq həm normativ, həm də institusional səviyyədə beynəlxalq hüquqi tənzimetmə mexanizminə keçməsi beynəlxalq hüquqda yeni prinsipin - ekoloji təhlükəsizlik prinsipinin - formalaşmasını əks etdirir. Müəllif ekoloji təhlükəsizlik prinsipinin formalaşması prosesinə xas olan bu xüsusiyyətləri aid edir: 1) universal beynəlxalq-hüquqi akt çərçivəsində onun sistemləşdirilməsinə ehtiyacın mövcudluğu; 2) ekoloji təhlükəsizlik prinsipinin təmin edilməsinə münasibətdə, inkişaf etmiş və inkişafda olan dövlətlər arasında həmin prinsipin effektivliyinə mənfi təsir göstərən ziddiyyətlərin olması; 3) ekoloji təhlükəsizliyin təmin edilməsinin hüquqi əsaslarının inkişafında qeyri-hökumət iştirakçılarının rolunun artması, bu isə dünya ictimaiyyətinin təsirinin güclənməsini vurğulayır.

Üçüncü paraqrafda - **Beynəlxalq-hüquqi və dövlətdaxili tənzimləmə arasındakı əlaqələr kontekstində ekoloji təhlükəsizliyin təmin edilməsi (Azərbaycan Respublikasının timsalında)** - ekoloji təhlükəsizliyin təmin edilməsi problemi beynəlxalq və milli hüquqi akpektdən nəzərdən keçirirlir. Dövlətin həm üzərinə götürdüyü öhdəliklərin şərtsiz icra etmək vəzifəsinin, həmçinin beynəlxalq hüquqi aktların dövlətdaxili tətbiqinin əsasını təşkil edən milli normaların göstərişlərinin icrasının təmin edilməsinin vacibliyi aşkarlanır. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Qanununda ümumiy-

yətlə beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinin üstünlüyünün tanınması qanunvericiliyin yeni müddəasıdır. Bu mənada Qanun demək olar ki, Azərbaycan Respublikasının Konstitusiyasının müddəalarını genişləndirmişdir. Belə ki, Qanunun 8-ci maddəsinə əsasən qanunvericilik fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyasının 149-cu maddəsinin 1-ci hissəsində əks olunan prinsiplərlə yanaşı, beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinin üstünlük prinsipinə uyğun olaraq həyata keçirilməlidir. Bundan əlavə Qanunun 22-ci maddəsinə əsasən Azərbaycan Respublikası beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərini tanıyır və Azərbaycan Respublikası qanunvericiliyinin həmin norma və prinsiplərə uyğunluğunu təmin edir.

Təsdiq edilir ki, Azərbaycan Respublikasında beynəlxalq hüquqi öhdəliklərin realizəsinin qəliz mexanizmi qüvvədədir ki, bu da beynəlxalq hüquqi xarakterli tələblər kontekstində ekoloji təhlükəsizliyin təmin edilməsi üçün əsasdır. Bununla yanaşı, ekoloji təhlükəsizliyin Azərbaycanda təmin edilməsi ilə bağlı beynəlxalq hüquqi öhdəlilərin realizəsinə xas olan bir sıra xüsusiyyətlərin mövculuğu qeyd olunur. Ekoloji təhlükəsizlik konsepsiyasının hüquqi əsası bir qayda olaraq tək beynəlxalq müqavilələr və adətlərdən ibarət deyil. Bura həmçinin beynəlxalq təşkilatların, beynəlxalq konfransların və yüksək səviyyəli görüşlərin aktları daxil edilir ki, bunlarında hüquqi statusu haqqında Azərbaycanın konstitusiya quruluşu çərçivəsində dəqiq müddəa mövcud deyil. Bununla yanaşı Azərbaycan Respublikasının Konstitusiyası bu cür aktların beynəlxalq hökümətlərarası təşkilatların aktları ilə yanaşı hüquqi statusunu barədə məsələni açıq saxlayır. Bu isə onların ekoloji təhlükəsizlik mexanizminin formalaşması üçün əhəmiyyətindən irəli gələrək tam məqsədəmüvafiq hesab edilməməsinə dəlalət edir.

Ekoloji təhlükəsizlik məsələləri üzrə əməkdaşlığın hüquqi əsasını dövlətlərarası müqavilələrlə yanaşı, Azərbaycan Respublikasının konstitusiya quruluşu tələbləri kontekstində normativ hüquqi aktlar iyerarxiyasında tam yeri aydınlaşdırılmamış hökumətlərarası və idarələrarası müqavilələr təşkil edir.

Danılmazdır ki, ekoloji təhlükəsizlik prinsipi milli ekoloji təhlükəsizlik konsepsiyasının yaranmasının əsasını təşkil edir. Ekoloji təhlükəsizliyin təmin edilməsinin hüquqi əsaslarına dair Azərbaycan Respublikasının qanunvericiliyi təhlil edilir. Bu sahədə konstitusion normalara xüsusi önəm verilir. Ekoloji təhlükəsizliyin konstitusion əsaslarını konstitusion quruluşun ekoloji əsasını müəyyənləşdirən normalar tutur. Ekoloji təhlükəsizlik barədə müddəalar digər dövlətdaxili normativ hüquqi aktlarda da öz əksini tapmışdır.

Dissertasiya işinin ikinci fəsli “**Ekololi insan hüquqlarının tələb olunan səviyyədə təmin edilməsi sistemində ekoloji təhlükəsizlik: beynəlxalq və milli hüquqi aspektlər”** adlanır və dörd paraqrafdan ibarətdir.

Birinci paraqrafda - **Ekoloji insan hüquqları: mahiyyəti, təsnifatı və hüquqi təbiəti** - ekoloji insan hüquqlarının mahiyyəti və hüquqi təbiəti müəy-



yən edilir və onların təsnifatı aparılır.

Qeyd olunur ki, beynəlxalq hüquqi tənzimləmə səviyyəsində ekoloji kontekstdə beynəlxalq təhlükəsizliyin təmin ediməsi və insan hüquqları arasındakı qarşılıqlı əlaqə ekoloji insan hüquqlarının mahiyyətinin və ümumiyyətlə insan hüquqlarının təmin edilməsində onların xüsusiyyətlərinin anlanılması ehtiyacını nəzərdə tutur. Əks halda beynəlxalq hüquqi müstəvidə ekoloji təhlükəsizliyin möhkəmləndirilməsi kontekstində ekoloji insan hüquqlarının təmin edilməsinin və təbiətin xüsusiyyətlərinin inkar edilməsi istifadə edilən alətlərin effektivliyinin azalmasına və insan hüquqlarının müdafiə mexanizmlərinin zəiflənməsinə gətirib çıxara bilər.

Müəllif təqdim etdiyi ekoloji insan hüuqlarının universal səviyyədə normativ əks olunması mexanizminin təkamülü xüsusiyyətlərini ümumiləşdirərək, hesab edir ki, bu inkişaf nisbətən yavaş və parçalanmış gedir. Öz növbəsində, bu kontekstdə birliyin və ardıcıllığın olmaması onunla nəticələnir ki, dövlətlər məzkur hüquqların təmin edilməsi üsulunu müstəqil seçir, bu isə dünya üzrə insan hüquqlarının təmin edilməsini məzmunca və səviyyəcə fərqləndirir.

Ekoloji insan hüquqları konsepsiyasının qəliz inkişaf prosesi və beynəlxalq hüquqi kontekstdə təsdiqlənməsi həmin hüquqların təsnifatına yanaşmalarda da öz əksini tapmışdır.

Müəllif qeyd edir ki, dünyada mövcud ekoloji vəziyyətin əhəmiyyətli dərəcədə yaxşılaşması müşahidə olunmamasına görə BMT üzv-dövlətləri ekoloji insan hüquqlarına dair vahid yanaşmanın təsdiqlənməsinə görə öz yanaşmalarının dəyişməsi istiqamətində tələb olunan zəruri iradə nümayiş etdirməyə tələsmirlər. Bu vəziyyətdə beynəlxalq hüquq elminin nümayəndələri arasında ekoloji hüquqlar siyahısının tərtib edilməsində də birlik müşahidə edilmir. Ekoloji təhlükəsizlik ekoloji insan hüquqlarının lazımi səviyyədə təmin edilməsi üçün şərtdir.

Təsdiq edilir ki, ekoloji insan hüquqlarının insan hüquqlarının müdafiəsinin beynəlxalq hüquq normalarında əks olunması prosesinin çətin, yavaş və parçalanmış olması bəzi problemli aspektlərlə bağlıdır ki, bunlarında əsasları sırasından kollektiv və fərdi ekoloji hüquqların təmin edilməsi səviyyəsinin fərli olmasını; ətraf mühitin ümumi nemət kimi müdafiəsini deyil ətraf mühit sahəsində öhdəliklərin pozulmasından əziyyət çəkənlərin müdafiəsi kimi dəyərləndirilməsini; ümumiyyətlə ekoloji insan hüquqlarının müassir müdafiə mexanizminin əsasında antroposentrik paradiqmanın durmasını vurğulamaq olar.

İkinci paraqraf - **Sağlam ətraf mühitdə yaşamaq hüququnun realizəsinin təmin edilməsində beynəlxalq hüquqi və dövlətdaxili səviyyələrin qarşılıqlı əlaqəsinin xüsusiyyətləri** - beynəlxalq və milli hüququn münasibətləri fonunda sağlam ətraf mühitdə yaşamaq hüququnun təhlilinə həsr olunur.

Ekoloji insan hüquqlarının təmin edilməsi sahəsində beynəlxalq hüquqi

normaların implementasiyasına yönəldilmiş milli hüquqi aktların vacibliyi qeyd olunur. Belə ki, beynəlxalq hüquqi normalar son vaxtlar bir qayda olaraq çərçivə xarakterlidirlər və iştirakçı dövlətlərdən müəyyən normativlərin riayyət edilməsini tələb edirlər. Həmin hüquqların təmin edilməsində konstitusion təminatlara xüsusi önəm verilir. Konstitusiya müddəaları digər normativ hüquqi aktlarda inkişaf etdirilmişlər. Qısa müddət ərzində Azərbaycan Respublikasında sağlam ətraf mühitdə yaşamaq hüququnun realizəsinə yönəldilmiş xeyli miqdarda normativ hüquqi aktlar qəbul edilmişdir. Azərbaycanda mövcud olan ekoloji hüquqların normativ və institusional təmin edilməsi sistemi özünün dinamizmliyi, mürəkkəbliyi və tarazlığı ilə səciyələnir. Birincisi, respublikanın ərazisində insanla ərtaf mühit arasındakı münasibətlərdə harmoniyanın formalaşması məqsədilə ekoloji insan hüquqlarının məzmununun və siyahısının daimi inkişafı və genişlənməsi ilə; ikincisi, sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsi məqsədilə birləşdirilmiş təşkilatı, maliyyə, nəzarətedici və institusional xarakterli razılaşdrılmış tədbirlərlə və üçüncüsü isə, Azərbaycan Respublikasının mövcud imkanları çərçivəsində ətraf mühitlə münasibətdə insan hüquq və öhdəliklər balansının riayyət edilməsi ilə əlaqələndirilir.

Normativ təminetmə ilə yanaşı sağlam ətraf mühitdə yaşamaq hüququnun realizəsində ətraf mühitin mühafizəsinə yönəldilmiş milli proqramlar tutur (məsələn, Azərbaycan Respublikası Prezidentinin 18.02.2003-cü il tarixli 11152 saylı Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli proqram” və “Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram").

Sağlam ətraf mühitin təmin edilməsində ekoloji hüquqların pozulmasına görə məsuliyyətin müəyyən edilməsidə xüsusi önəm kəsb edir. Hesab olunur ki, qanunvericilikdə ekoloji hüquqların pozulmasına görə məsuliyyətin müəyyən edilməsi və onların müdafiəsinin real işləyən mexanizminin yaradılması ekoloji hüquqpozuntularının qarşısının alınmasına və sağlam ətraf mühitdə yaşamaq hüququnun effektiv təmin edilməsinə səbəb olacaqdır.

Ekoliji maarifləndirmənin səviyyəsi də sağlam ətraf mühitdə yaşamaq hüququnun realizəsinə öz töhvəsini verir.

Başa düşüləndir ki, sağlam ətraf mühitdə yaşamaq hüququ ümumiyyətlə yaşamaq hüququndan irəli gəlir. Hazırda ətraf mühitin ayrı-ayrı sahələrinin mühafizəsinə yönəlmiş sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsində vacib rol oynayan kifayət qədər beynəlxalq hüquqi aktlar qəbul olunub, hansı ki yaşamaq hüququnun əsas təminatçısı kimi çıxış edir. Təmin edilməsi şəxsin yurusdiksiyası altına düşən dövlətin real hərəkətlərinə söykənən digər hüquqlardan fərqli olaraq sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsini beynəlxalq əməkdaşlıqsız təsəffür etmək mümkün deyil. Bundan əlavə sağlam ətraf mühitdə yaşamaq hüququnun realizə edilməsi subyektlərdən



həm sağlam mühitin təmin edilməsi istiqamətində fəal hərəkətlər, həm də ekoloji tarazlığın pozulmasının qarşısının alınmasını tələb edir.

Üçüncü paraqrafda - **Ətraf mühitə dair məlumat almaq hüququ və onun Azərbaycan Respublikasında təmin edilməsi** - ətraf mühitə dair məlumat almaq hüququnun ekoloji təhlükəsizliyin təmin edilməsində rolu müəyyən edilir. Sübhəsiz ki, məlumat almaq hüququnu əks etdirən beynəlxalq sənədlərin effektivliyi onun milli qanunvericilik vasitəsilə realizəsinin səviyyəsindən asılıdır. Azərbaycan Respublikası 2000-ci ilin mart ayında bu sahədə əsas sayılan Ətraf mühitə dair məlumatın çatımlılığı, ictimaiyyətin qərarların qəbulunda iştirakı və ədalət mühakiməsinin çatımlılığı haqqında 1998-ci il Konvensiyasına (Orhus Konvensiyası) qoşulsada, hələ ki, həmin Konvensiyanın 21.05.2003-cü il tarixli Tullantıların və ötürücü çirkləndiricilərin registri haqqında Protokolun iştirakçısı olmamışdır.

Ətraf mühitə dair lazımi məlumat almaq hüququnun tam olaraq realizəsini əngəlləyən problemlərdən biridə vətəndaşların ekoloji məlumatı əldə etmək üçün hara müraciət edilməli və sorğu verilməli barədə məlumatsızlığıdır. Bu məsələnin həll edilməsi üçün maarifləndirmə işlərinə xüsusi diqqət yetirilməlidir. Ekoloji təhsil daimi insanı müşahidə etməli, ekoloji dünyagörüşünün formalaşmasına təsir göstərməli, təbiətin vəziyyətinə görə məsuliyyət hissini aşlamalı, o cümlədən ekoloji fəaliyyətdə fərdi iştirakın vacibliyinin dərk etməsinə dəstək verməlidir.

Orhus Konvensiyasının ətraf mühitə dair məlumat almaq hüququ haqqında müddəalarının realizəsinin hüquqi təmin edilməsi misalında milli hakimiyyət orqanlarının müvafiq beynəlxalq hüquqi öhdəliklərinin Azərbaycanda həyata keçirilməsində səylərinin lazımi səviyyədə olmasını qeyd etmək lazımdır. Bununla yanaşı Azərbaycan tərəfindən bu öhdəliklərin vicdanla icra etməsi onların realizəsinin effektivliyini təmin etmək üçün milli hüquq sisteminin xüsusiyyətlərinin nəzərə alınmasını ehtiva edir.

Bu xüsusiyytələri əks etdirən misal kimi bunları sadalamaq olar: 1) Orhus Konvensiyası ilə “Ətraf mühitə dair məlumat almaq haqqında” Azərbaycan Respublikası 270-IIQ nömrəli 12.03.2002-ci il tarixli Qanununun 1.0.2-ci maddəsində məlumat obyektlərinin müəyyən edilməsində fərqlər; 2) məzkur Qanunun 7-ci maddəsinə əsasən məlumatın verilməməsi əsaslarının daha məhdud olması; 3) Orhus Konvensiyasının tələblərinin dəqiqləşdirilməsinə yönəldilmiş dəqiq fəaliyyət növləri üzrə qərarların qəbul edilməsində ictimaiyyətin iştirakının spesifik şərtləri.

Dördüncü paraqraf - **Həyat üçün su hüququnun təmin edilməsində beynəlxalq və milli hüquqi əsaslar** - həyat naminə su hüququnun formalaşmasının və inkişafının təhlilinə həsr olunur.

Çatımlı normativ hüquqi alətlər vasitəsilə su ehtiyatlarının idarə edilməsi

prosesinin ayrılmaz hissəsi kimi çıxış edən içməli suyun ədalətli və səmərəli istifadəsi ilə bağlı birgə mexanizmlərin qurulmasının vacibliyi qeyd edilir. Bu yolda aşağıdakı maneələr müəyyən edilir: 1) bu cür mexanizmin mahiyyətinin vahid anlanılmasının, həyata keçirilməsinin praktiki yollarının, istifadəsində əldə olunacaq faydaların, o cümlədən mövcud çağırışların, xüsusəndə bir neçə dövlətin ərazisindən keçən beynəlxalq çayların hövzəsi halında, olmaması; 2) iqtisadi tərəqqi, davamlı inkişaf və bütün maraqlı dövlətlərin maraqlarının lazımi səviyyədə təmin edilməsi arasında tarazlığın əldə edilməsində çətinliklər; 3) su hüququnun təmin edilməsinin ayrı-ayrı məsələlərinin tənzimlənməsinin normativ hüquqi əsaslarının qəbulu və inkişaf səviyyələrinin fərqli olması, vahid teminologiyanın olmaması; 4) işməli suların istifadəsi ilə bağlı tənzimləmə məsələsində sistem və kompleks yanaşmanın yaranmaqda olan vəziyyəti. "Su həyat üçün" 10-illiyin nəticələri və 2018-2028-ci illəri Beynəlxalq 10-illik fəaliyyət kimi bəyan edən BMT Baş Assambleyasının 21 dekabr 2016-cı il tarixdə qəbul etdiyi A/RES/71/222 21 nömrəli "Su davamlı inkişaf üçün" Beynəlxalq 10-illik fəaliyyət" Bəyannaməsi təhlil edilir.

21.05.1997-ci il tarixli Beynəlxalq su axınlarının qeyri-naviqasiya növləri ilə istifadə hüququna dair Konvensiyanın, 1990-cu il Transsərhəd daxili suların təsadüfi çirklənməsi zamanı davranış Məcəlləsinin, o cümlədən 17.03.1992-ci il tarixli Transsərhəd su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsinə dair Helsinki Konvensiyasının mahiyyəti vurğulanır. Bu Konvensiyada Gürcüstanın və Ermənistanın iştirak etməməsi fonunda Azərbaycan Respublikası üçün vacib məsələ Kür və Araz kimi transsərhəd çayların mühafizəsi mühüm məsələdir. Məhz bu çaylardan bizim respublika içməli suyun əsas hissəsi əldə edir. Əgər əvvəllər bu çayların mühafizəsi ittifaq dövlətinin yurisdiksiyasına aid olunurdursa, hazırda həmin çaylardan əldə olunan su ehtiyatlarının bölünməsi və çirklənməsinin qarşısının alınması beynəlxalq xarakter daşıyır. Beləliklə, su ehtiyatlarının idarə edilməsi üçün yeni normativ-hüquqi bazanın formalaşması məsələsi aktuallaşmaqdadır. Lakin Azərbaycan Respublikası ilə Ermənistan arasında Araz çayı ilə bağlı müvafiq əməkdaşlığın olmaması, bu su hövzəsinin mühafizəsində effektiv nəticələrin əldə olunmasına maneələr törədir. Bu cür mexanizmin olmaması qeyd olunan çayların çirklənməsi ilə müşahidə olunur. Əsas təsiredici Ermənistanda yerləşən Metsamor AES-dan Araz çayına tullantıların axıdılmasıdır.

Su hüququnun təmin edilməsi ilə bağlı sadalanan problemlərlə yanaşı Azərbaycan Respublikasının müəyyən ərazisinin zəbt edilməsidə digər problemlərin yaranmasına səbəb oldu. Belə ki, Ermənistan təcavüzü nəticəsində Sərsəng su anbarının tutulması və onun su ehtiyatlarından istifadənin məhdudlaşdırılması bu gün yarım milyona yaxın Azərbaycan vətəndaşının təmiz içməli su əldə etmək hüququndan məhrum etmişdir.



Nəzərə alsaq ki, hər bir iştirakçı dövlət diskresion imkanlar çərçivəsində daha əlverişli tədbiri özü müəyyən edir, su hüququnun təmin edilməsində dövlətdaxili qanunvericilik aktlarının qəbuluna mühüm yer ayrılır.

Təbiidir ki, bu halda dövlət məhz su hüququnun həyata keçirilməsi nöqteyi nəzərdən daha effektiv tədbirləri qəbul edəcəkdir. Su hüququnun təmin edilməsinə yönəlmiş Azərbaycan Respublikasının qanunvericiliyi və həmin hüququn realizəsini təmin edəcək praktiki tədbirlər təhlil edilir. Qanunvericilikdəki boşluqlar müəyyən edilir və su hüququnun təmin edilməsinin effektivliyinin artırılması məqsədilə təkliflər irəli sürülür.

Dissertasiya işinin üçüncü fəsli "**Ekoloji təhlükəsizliyin təmin edilməsi məsələsində müqavilə əməkdaşlığı"** adlanır və dörd paraqrafdan ibarətdir.

Birinci paraqrafda - **Beynəlxalq müqavilə ekoloji təhlükəsizliyin təmin edilməsinin hüquqi tənzimlənməsi mənbələri sistemində -** ekoloji təhlükəsizliyin təmin edilməsində müqavilə əməkdaşlığının vacibliyi müəyyən edilir.

Müəllif ekoloji təhlükəsizlik sahəsində əməkdaşlığın müqavilə mexanizmlərinin inkişafının xüsusiyyətlərini aşkarlayır: parçalanmanın əhəmiyyətli səviyyədə olması; ekoloji təhlükəsizliyin təmin edilməsində müqavilə əməkdaşlığının mövcud səviyyəsinin ən aşağı ümumi məxrəc göstəricisinə uyğunluğu; ekoloji təhlükəsizliyin təmin edilməsində müqavilə əməkdaşlığının inkişafının yeni müqavilə işlənilməsindən artıq mövcud müqavilələrin müddəalarının yerinə yetirilməsinin təmin edilməsi mexanizminin və monitorinqin möhkənlənməsi istiqamətinə cərəyən etməsi və həm ətraf mühitin qorunması, həm də ümumiyyətlə ekoloji təhlükəsizliyin təmin edilməsi üzrə beynəlxalq çoxtərəfli müqavilələrin işlənilməsi prosesində daha çox çərçivə yanaşmasından istifadə edilməsi.

Ekoloji təhlükəsizliyin təmin edilməsində əməkdaşlığının müqavilə mexanizmlərinin qarşılaşdığı maneələr açıqlanır, məhz: ekoloji təhlükəsizlik məsələləri üzrə müqavilə normalarının işlənilməsində, anlanılmasında və şərh edilməsində fərqli yanaşmanın olması onların effektivliyinə mənfi təsir göstərir; ekoloji təhlükəsizlik normalarının təminetmə mexanizminin tam inkişaf etməməsi bu cür normaların həyata keçirilməsinin effektivliyinə mənfi təsir göstərir; ekoloji təhlükəsizliyin təmin edilməsi məsələlərində əməkdaşlığın müqavilə mexanizminin sayının artması onlar arasında qarşıdurmanın yaranmasını istisna etmir.

İkinci paraqraf - **Universal səviyyədə ekoloji təhlükəsizliyin təmin edilməsi məsələsində müqavilə əməkdaşığı -** BMT çərçivəsində ümumi ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlmiş dövlətlərarası əməkdaşlığın inkişafının təhlilinə həsr olunur.

Qeyd olunur ki, ətraf mühitin qorunmasının təmin edilməsi məsələləri üzrə əməkdaşlığın müqavilə mexanizmlərinin inkişafının xüsusiyyətləri və ekoloji təhlükəsizliyin təmin edilməsinin tələb olunan səviyyəsi ümumiyyətlə

müsbət dinamikanın mövcudluğunu təsdiq etməyə əsas verir.

Bununla yanaşı, həmin sahədə müqavilə əməkdaşlığının effektivliyini aşağı sala biləcək çağırışlar müəyyən edilir: a) ətraf mühitin bütövlüyünün və ekoloji təhlükəsizliyin tələb olunan səviyyədə təmin edilməsi məsələləri üzrə müqavilələrin sayının artması mövcud hüquqi rejimin parçalanmasına gətirib çıxarır; b) ətraf mühitin bütövlüyünün və ekoloji təhlükəsizliyin tələb olunan səviyyədə təmin edilməsi məsələləri üzrə BMT üzv-dövlətlərinin əməkdaşlığının müqavilə çərçivəsində beynəlxalq hüquqi normaların riayyət edilməsinə məcburetmə mexanizminin olmaması iştirakçı dövlətlərin səylərinin səmərəliyini azaldır; c) ətraf mühitin bütövlüyünün və ekoloji təhlükəsizliyin tələb olunan səviyyədə təmin edilməsi məsələləri üzrə BMT üzv dövlətləri sırasından dövlətlərin müqavilə tələblərinin realizə edilməsi inkişafda olan dövlətlər üçün təsiredici çağırışların formalaşmasına səbəb ola biləcək xeyli maliyyə, kadr və elmi resursların istifadəsini nəzərdə tutur.

Müassir dövrdə ekoloji təhlükəsizliyin təmin edilməsi məsələlərində əməkdaşlığın müqavilə mexanizmlərinin inkişafına xas olan cəhətlər aşkarlanır: parçalanmanın əhəmiyyətli səviyyədə olması; beynəlxalq hüquqi əməkdaşlıq təcrübəsində ekoloji təhlükəsizliyin təmin edilməsi məsələsində iştirakçı-dövlətlərin ən aşağı ümumi məxrəc meyarına əməl edilməsini nəzərdə tutan yanaşmanın möhkəmlənməsi; ekoloji təhlükəsizliyin təmin edilməsi məsələləri üzrə müqavilə əməkdaşlığının inkişafında yeni müqavilələrin işlənilməsindən artıq mövcud olan təminetmə mexanizmlərinin və uyğunluq monitorinqinin möhkəmlənməsinə istiqamətlənməsi; həm ətraf mühitin həm də ekoloji təhlükəsizliyin qorunmasında, çoxtərəfli beynəlxalq müqavilələrin işlənilməsi prosesində çərçivə yanaşmasnın geniş istifadə edilməsi; həm ekoloji təhlükəsizlik üzrə beynəlxalq hüquqi normaların hazırlanmasında, həm də onların icrasına nəzarətdə qeyri-hökümət sektoruna mühüm yerin ayrılması.

Üçüncü paraqrafda - **Ekoloji təhlükəsizliyin təmin edilməsi sferasında regional müqavilə-hüquqi əməkdaşlıq alətləri (Xəzər dənizi regionu timsalında) -** Xəzəryanı regionda müqavilə əməkdaşlığının inkişafı persrektivləri araşdırılır.

Ekoloji təhlükəsizliyin təmin edilməsi məsələlərində universal səviyyədə müqavilə əməkdaşlığın regional ekosistemlərin unikal xüsusiyyətlərini və onların inkişafını əngəlləyən müassir çağırışların əks olunmasında məhdud imkanlara malikdirlər. Məhz bu səbəbdən ekoloji təhlükəsizliyin təmin edilməsi məsələsində regional müqavilə əməkdaşlığı vacib və məqsədə müvafiqdir. Bu cür əməkdaşlığın aktuallığı ekoloji vəziyyəti kritik olan regionlarda daha qabarıq hiss olunur.

Xəzər dənizinin ekosisteminin özəlliyi ilə yanaşı yaranmış çətin ekoloji vəziyyət ekoloji təhlükəsizliyin təmin edilməsi məsələsində Xəzəryanı dövlətlərin



əməkdaşlığının dərinləşməsinə və genişlənməsinə alternativin olmamasını vurğulayır. Ekoloji təhlükəsizlik sahəsində Xəzəryanı dövlətlərin müqavilə əməkdaşlığı Xəzər dənizi regionunda ətraf mühitin qorunması rejiminin mütərəqqi inkişafında və möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edir. Ekoloji təhlükəsizliyin təmin edilməsində Xəzəryanı dövlətlərin əməkdaşlığı əlavə olaraq regional dövlətlərarası anlaşmaların digər sahələrində yaranan bir sıra problemlərlə (Xəzər dənizinin hüquqi statusunun həll edilməməsi, Xəzəryanı dövlətlərin əməkdaşlıq mexanizminin tarixi, iqtisadi və geopolitik nöqteyi nəzərdən inkişafında daxili çətinlik və uyğunsuzluq) mürəkkəbləşir. Xəzər dənizinin istifadə rejimini müəyyən edən mövcud razılaşmalar hüquqtətbiqetmə kontekstində çətinliklər və maneələr yarada biləcək xüsusiyyətlərlə xarakterizə edilir ki, bunlara aşağıdakıları aid etmək olar: a) bu sənədlərin müddəalarının əsasən çərçivə xarakteri daşıması; b) onların tələblərinin realizəsində ictimaiyyətin məhdud iştirakı; c) məzkur razılaşmalar əsasında yaradılmış orqanlar tərəfindən qəbul edilən qərarların hüquqi qüvvəsinə dair dəqiq göstərişlərin olmaması, həmçinin onların fəaliyyətinin məhdud maliyyələşməsinin mövcudluğu.

Hesab olunur ki, ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində regional beynəlxalq-hüquqi regional əməkdaşlıq alətləri Xəzər dənizinin ekosistemin lazımi səviyyədə təmin edilməsi kontekstində vacib və effektiv sayılır.

Dördüncü paraqraf - **Milli cinayət qanunvericili vasitəsilə ətraf mühitin mühafizəsinə dair beynəlxalq model qaydaları -** milli cinayət qanunvericiliyi çərçivəsində ekoloji təhlükəsizliyin təmin edilməsi probleminin təhlilinə həsr olunur.

Qeyd edilir ki, model qanunların qəbul edilməsi vasitəsilə ekoloji cinayətlərlə mübarizəyə dair müddəaların unifikasiyasının nəticəsi, məhz bu cür cinayətlərə görə cinayət məsuliyyətinin tətbiqi sahəsində, 04.11.1998-ci il tarixli Cinayət qanunvericiliyi vasitəsilə ətraf mühitin qorunmasına dair Konvensiyanın qəbulu olmuşdur.

Həmin Konvensiya iştirakçı-dövlətlərdən qeyd olunan əməllərin törədilməsi faktını, onlar əhəmiyyətli dərəcədə mənfi təsirlə belə nəticələnmədikdə də, bilərəkdən və ehtiyatsızlıqdan törədilməsinə baxmayaraq milli qanunvericiliyə uyğun sanksiya və ya digər mühafizə tədbirlərinin tətbiqinə səbəb ola biləcək cinayət və ya inzibati pozuntu kimi təsnifatlaşdırmağı tələb edir. Konvensiyada sadalanan cinayətlərin qarşısının alınmasında və cəzalandırılmasında beynəlxalq səviyyədə cinayət işləri üzrə əməkdaşlığın təmin edilməsinə yönəldilmiş lazımi tədbirlərin və milli səviyyədə isə bu səpkidə cinayətlərin törədilməsinə görə məsuliyyətə cəlb edilməni təmin edəcək prosessual qanunvericiliyin qəbul edilməsinə xüsusi yer ayrılır.

Ətraf mühitin cinayət qanunvericiliyi vasitəsilə qorunmasına yönəlmiş Avropa İttifaqının və Müstəqil Dövlərlər Birliyinin normativ hüquqi bazası təhlil edilir. Təsdiq edilir ki, bu cür cinayətlərə görə cəza səmərəli, mütənasib və çəkin-

dirici olmalıdır. Qeyd olunur ki, model normaların məzmunu müqavilə normalarının vahid tətbiqetmə təcrübəsinin formalaşması və əməkdaşlığın məqsədlərinə daha effektiv nail olunması məqdəsilə milli qanunvericinin normayaradıcılığının dəqiq çərçivəsinin müəyyən edilməsinə istiqamətlənir. Ətraf mühitin qorunmasının təmin edilməsinə dair model normalar MDB səviyyəsində ekoloji cinayətlərin törədilməsinə görə cinayət məsuliyyətinə cəlb edilməsi kontekstində istifadə imkanlarının regionda ağır ekoloji durumun olmasına (xüsusəndə Xəzəryanı dövlətlərdə) baxmayaraq kəsat istifadə edilməsi qeyd edilir. Bunun təsdiqi Avropa Şurası və Aİ-dan fərqli olaraq MDB səviyyəsində müvafiq tənzimetmə sahəsində nümunəvi normayaradıcılıq imkanından istifadə etməklə sistemli yanaşmanın əsasını təşkil edə biləcək cinayət normalarının köməyi ilə tamamilə ətraf mühitin qorunmasına həsr edilmiş müqavilə xarakterli aktların olmamasıdır.

**“Ekoloji təhlükəsizliyin təmin edilməsində ətraf mühitin mühafizəsi üzrə beynəlxalq hüquqi normaların pozulmasına görə məsuliyyətin yeri”** adlanan dördüncü fəsil üç paraqrafdan ibarətdir.

Birinci paraqrafda - **Ekoloji təhlükəsizliyin təmin edilməsi mexanizmində ekosidə görə məsuliyyət: müassir cərayənlər və çağırışlar -** ətraf mühitin dayanıqlığına qarşı yönəlmiş əməllərin kriminallaşdırılması problemi araşdırılır.

Hesab edilir ki, məsuliyyətə cəlb etmək imkanının olmaması ekoloji insan hüquqlarının təmin edilməsinin effektivliyini kifayət qədər azaltmış olardı, bu isə özü-özlüyündə ümumiyyətlə ekoloji təhlükəsizlikdə əks olunardı.

Bu kontekstdə dağıdıcı nəticələri son dərəcədə ağır olan ekosidə görə məsuliyyətə cəlb etmək imkanına xüsusi önəm verilir. Bundan irəli gələrək ekoloji təhlükəsizliyin təmin edilməsi kontekstində məsuliyyətə cəlbetmənin mövcud mexanizminin səciyyələndirilməsi məqsədə müvafiqdir.

Qeyd olunur ki, bu günədək davam edən cəhtlərə baxmayaraq, normativ təsdiqlənməsini təmin etmək mümkün olmamışdır. “Ekosid”in anlayışının hüquqi müstəvidə əks olunmaması beynəlxalq hüquqi səviyyədə müxtəlif doktrinal təriflərin gündəmə gəlməsinə səbəb olmuşdur. “Ekosid” anlayışının məzmununa münasibətdə fərqli fikirlərin olması, milli qanunvericilərin ekosidə görə cinayət məsuliyyətinin təsdiqlənməsi yanaşmalarına da təsirsiz ötüşməmişdir. Ekosidin cinayət tərkibi kimi normativ hüquqi təsdiqlənməsi ilə bağlı yaranmış vəziyyət ekoloji təhlükəsizliyin təmin edilməsi baxımından kifayət qədər sayıla bilməz. Belə ki, ekosidin cinayət əməli kimi hansısa elementlərinə milli qanunvericilərin fərqli yanaşmaları boşluqların yaranmasına səbəb olur. Bu isə ekosidin törədilməsinə görə məsuliyyətə cəlbetmə rejiminin bütövlüyü, sistemliyi və səmərəliyi barədə danışmağa imkan vermir.

Ekosidə aid hərəkətlərin qadağan edilməsini əks etdirən nümunələrin fərqli cəhəti həmin hərəkətlərin müharibə dövrü ilə əlaqələndirilməsidir. Yalnız tədricən beynəlxalq hüquqi müqavilə alətləri çərçivəsində ekosidin yalnız hərbi



cinayət kimi tanınmasından onun beynəlxalq təhlükəsizliyə qarşı cinayət kimi daha geniş şərh edilməsi anlayışı istiqamətində cərayənin formalaşmasıdır. Ekosidin kriminallaşması ilə bağlı çağırışlara Beynəlxalq cinayət məhkəməsinin ekosidin sülh əleyhinə cinayətlərə aid etməklə yurisdiksiyasının genişlənməsidir; Beynəlxalq cinayət məhkəməsinə alternativ kimi ekosid aktlarının baxılması üzrə yurisdiksiyaya malik müstəqil beynəlxalq məhkəməsinin yaradılması imkanı; günahın cinayət tərkibinin vacib elementi kimi tanınması tələbi kontekstində ekosidə görə məsuliyyətə cəlb edilmək; əhalinin daha geniş qruplarının inkişafı hüququnun təmin edilməsi vacibliyinə müraciət edildiyi zaman ekosidin sübutetməsində çətinlik.

İkinci paraqraf - **Sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsi sistemində ətraf mühitə transsərhəd ziyanın vurulmasına görə mülki məsuliyyət** - sağlam ətraf mühitdə yaşamaq hüququnun ekologiyaya transsərhəd ziyanın vurulmasına görə mülki məsuliyyət institutunun inkişafı vasitəsilə təmin edilməsi probleminin təhlilinə həsr olunur.

Ətraf mühitə vurulan ziyana görə məsuliyyət məsələsinin beynəlxalq hüquqi tənzimlənməsi Sağlam ətraf mühitdə yaşamaq hüququna dair Stohqolm Bəyannaməsinin birinci Prinsipində əks olunmuş ümumi hüquqi təminetmənin vacib elementini təşkil edir.

Mülki məsuliyyət məsələsi üzrə beynəlxalq əməkdaşlığın fəallaşmasının vacib nəticəsi BMT Baş Assambleyası tərəfindən 04.12.2006-cı il tarixli 61/36 saylı (Təhlükəli fəaliyyət növləri nəticəsində vurulmuş transərhəd ziyan halında zərərin bölüşdürülməsi) və 06.12.2007-ci il tarixli 628 saylı (Təhlükəli fəaliyyət növlərindən transsərhəd ziyanın qarşısının alınması məsələsinin baxılması və bu cür ziyan zamanı zərərin bölüşdürülməsi) qətnamələrin qəbulu olmuşdur. BMT Beynəlxalq hüquq komissiyasının ətraf mühitə qadağan edilməmiş, lakin təhlükəli fəaliyyət növləri nəticəsində ziyanın kompensasiyası məsələsinə münasibətdə fərqli yanaşması qüvvədə olan müqavilə mexanizmləri ilə müqayisədə mövcud mülki məsuliyyətin aydın vaxt çərçivəsində işləməsi rejiminin olmamasıdır. Bu cür qərarın daha çox güman edilən səbəbi kimi bu və digər çirkləndiricilərdən mənfi nəticələrin təzahüründəki fərqi hesab etmək olar, buda hansısa vahid müddətin müəyyən edilməsini mümkünsüz edir.

